**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun xaricdə elmi tədbirlərdə və qısamüddətli təcrübəkeçmədə iştirakı əhatə edən xüsusi layihələrin maliyyələşdirilməsi məqsədi ilə qrantların verilməsi üzrə 2014-cü ildə 4-cü "Mobillik qrantı" müsabiqəsinin (EİF-Mob-4-2014-1(16)) qalibi olmuş layihənin yerinə yetirilməsinə dair**

# HESABAT

Bu hesabat, 3 iyul tarixində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmış, donor qismində çıxış edən Elmin İnkişafı Fondu ilə resipiyent Muxtar Hacızadə Şakir oğlu arasında bağlanmış müqaviləyə dair (EİF-Mob-4-2014-1(16)-11/11/5-M-08) layihə rəhbəri tərəfindən təqdim olunur.

Layihə rəhbəri, müqavilədə nəzərdə tutulmuş "Elmi-texniki tapşırığ"a uyğun olaraq 30 iyul 2014 - 30 avqust 2014 tarixləri arasında qısamüddətli təcrübəkeçmə məqsədilə İngiltərənin Bath Universitetinin Siyasət, Dillər və Beynəlxalq Münasibətlər Departamentində olmuş və təcrübəkeçməni uğurla tamamlamışdır (Təsdiq məktubu əlavə olunur).

Təcrübəkeçmə zamanı Geniş Qara Dəniz Bölgəsindəki təhlükəsizlik münasibətləri, o cümlədən regionda müvəqqəti və daimi sülhün bərqərar olması imkanları, aralarında konfliktləri olan region dövlətlərinin uzlaşma mümkünlüyünün təhlili üçün cəhdlər olundu. Layihə çərçivəsində aparılan elmi işin məzmunu Geniş Qara Dəniz Bölgəsindəki regionallaşma proseslərini sistematik analiz etmək, region dövlətləri arasındakı ikitərəfli və çoxtərəfli münasibətlərə əsaslanan regiondakı mövcud əlaqələrin və əməkdaşlığın interpretasiyasını təmin etmək, regiondakı inteqrasiya səviyyəsini müəyyən etmək və Təhlükəsizlik Cəmiyyətinin (the concept of security community) yaranma mümkünlüyünü araşdırmaqdan ibarət idi. Bu məqsədlə, qısamüddətli təcrübəkeçmə zamanı mövzu ilə bağlı materiallar və mənbələr sistemli tədqiqat və təhlil məqsədi üçün müəyyən edildi, yeni nəzəri yanaşmalar tədqiqatın məqsədi çərçivəsində müzakirə olundu. Təhlükəsizlik Cəmiyyəti konsepsiyasını empirik olaraq zənginləşdirmək, müasir zamanda debat mövzusu olan Yeni Regionalizm konseptual yanaşmasına Cənubi Qafqazı da özündə ehtiva edən Geniş Qara Dəniz Bölgəsindəki regionlaşma proseslərindən ümumiləşdirmə apararaq töhfə verən məqalə layihələndirildi.

Layihə rəhbəri Elmin İnkişafı Fondunun dəstəyi ilə baş tutan qısamüddətli təcrübəkeçmə zamanı 5 avqust 2014-cü ildə "Kompleks Regionallaşma və Yaranmaqda olan Təhlükəsizlik Cəmiyyəti" başlıqlı mühazirə oxumuşdur. Tədbirdə, Bath Universitetinin Humanitar və Sosial Elmlər Fakultəsinin professor-müəllim heyəti və doktorantları iştirak etmişdir. Layihə rəhbəri, tədbir zamanı bu mühazirənin Elmin İnkişafı Fondunun dəstəyi ilə baş tutduğunu iştirakçıların diqqətinə çatdırmışdır. Bundan əlavə, layihə rəhbəri qısamüddətli təcrübəkeçmə müddəti ərzində Bath Universitetində keçirilən seminarlarda iştirak etmiş, həmin universitetdə fəaliyyət göstərən yüksək ixtisaslı kadr mühitindən faydalanmışdır.

Layihə rəhbəri, Geniş Qara Dəniz Bölgəsindəki regionallaşma proseslərinin Təhlükəsizlik Cəmiyyəti konsepsiyası baxımından dəyərləndirilməsi, bu regionda mümkün ola biləcək Təhlükəsizlik Cəmiyyəti üçün regionda hökm sürən imkanların qiymətləndirilməsi, regional inteqrasiya üçün mövcud olan əngəllərin təhlil olunması və fürsətlərin analizi baxımından Humanitar və Sosial Elmlər Fakultəsinin professor-müəllim heyəti ilə mütəmadi diskussiyalar apararaq, öz elmi işi üçün onlardan əks əlaqələr almışdır. Eyni zamanda, layihə rəhbəri həmin fakultənin doktorantları ilə də təmaslar qurmuş və elmi müzakirələrdə iştirak etmişdir.

Təcrübəkeçmə zamanı professor Galbreath ilə mütəmadi konsultasiyalar keçirilmiş, aparılan araşdırma layihəsinin nəzəri substantivliyinin artırılması məqsədilə müvafiq ədəbiyyatın

müəyyən olunması (literature review), tədqiqat mövzusu üçün xüsusi araşdırma metodologiyasının təyin olunması baş tutmuş və bu metodoloji yanaşmaların dərindən mənimsənilməsi, mövzunun müxtəlif aspektlərinin məqalədəki arqumentasiyası üçün seleksiya olunmasından ötrü tədbirlər görülmüşdür. Qısamüddətli təcrübəkeçmə müddəti ərzində layihə rəhbəri layihədə təklif olunan mövzunun nəzəri tərəfdən dərinləşdirilməsi, arqumentin cilalanması üçün Bath Universitetinin zəngin ədəbiyyat resurslarından istifadə etmiş, onların üzv olduğu nüfuzlu elmi jurnallarda nəşr olunan məqalələrlə mütəmadi tanış olmuşdur.
Təcrübəkeçmə zamanı tədqiqat layihəsinin ilkin variantı "Avropa Təhlükəsizliyi" ("European Security") elmi jurnalına təhvil verilmişdir. Layihə rəhbərinin həmin elmi jurnal üçün təklif etdiyi məqalənin layihəsinin Təhlükəsizlik Cəmiyyəti konsepsiyasını empirik olaraq zənginləşdirmək potensialı jurnalın redaktoru tərəfindən müsbət qiymətləndirilmişdir. Qeyd olunmuşdur ki, müasir zamanda debat mövzusu olan Yeni Regionalizm konseptual yanaşmasına Cənubi Qafqazı da özündə ehtiva edən Geniş Qara Dəniz Bölgəsindəki regionlaşma proseslərindən ümumiləşdirmə apararaq veriləcək töhfə bu jurnalın məqsədlərinə xidmət etmiş olacaq.

İmza: ______________________ Muxtar Hacızadə Şakir oğlu

Tarix: 9 sentyabr 2014

Təhvil aldım 20.10.2014